# 2016-cı ilin sosial-iqtisadi inkişaf prioritetləri hansılardır?




**Dinamik inkişaf tempinə malik olan Azərbaycanın iqtisadi tərəqqisinin əsasında duran mühüm amillərdən biri də çoxsaylı infrastruktur layihələrinin həyata keçirilməsidir. Bu gün paytaxtda olduğu kimi, respublikamızın regionlarında da sosial infrastrukturun inkişafı dövlətimiz tərəfindən diqqətdə saxlanır. Ölkə Prezidenti İlham Əliyev tərəfindən imzalanan regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları çərçivəsində əhəmiyyətli infrastruktur layihələri həyata keçirilib. Məqsəd Bakı və onun mərkəzi ilə yanaşı, ətraf qəsəbələr və bölgələr arasındakı fərqi aradan qaldırmaqdır.**

Prezident İlham Əliyevin rəhbərliyi ilə son on iki ildə Azərbaycanda əldə edilən sosial-iqtisadi uğurların əsasında ümummilli lider Heydər Əliyevin siyasi kursu dayanır. Cənab İlham Əliyev ölkəyə rəhbərliyə başladığı 2003-cü ilin oktyabr ayından daim Ulu Öndərin siyasi kursuna sədaqətini nümayiş etdirib, xalqın etimadını əməli fəaliyyəti ilə doğruldub. Xalqımız və müstəqil dövlətimiz üçün alternativsiz olan bu siyasi kurs dövlət başçısının uğurlu fəaliyyətinin başlıca amili sayılır.

Hazırda iqtisadiyyatın dinamik inkişafı, görünməmiş yüksəliş, tərəqqi Azərbaycanın şəhər və kəndlərinin simasını dəyişir, insanların həyat tərzini yeniləşdirir. Genişmiqyaslı dövlət proqramları həyata keçirilir, xalqımızı düşündürən sosial-iqtisadi problemlər həll edilir. İstehsal və sosial infrastruktur obyektləri yaradılır, yeni iş yerləri açılır. Təhsilə, elmə, mədəniyyətə, səhiyyəyə, idmana dövlət qayğısı artır. Aqrar sahədə müsbət dinamik inkişaf davamlı xarakter alır.

Son illər dünyada davam edən böhrana baxmayaraq, Azərbaycanda makroiqtisadi sabitlik qorunur, iqtisadiyyatın rəqabət qabiliyyəti getdikcə artır, nəzərdə tutulmuş bütün sosial proqramlar uğurla yerinə yetirilir. Ölkəmizin davamlı inkişafının təmin olunmasında, heç şübhəsiz, Prezident İlham Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi sosial-iqtisadi siyasət, o cümlədən bu siyasətin prioritet istiqamətlərindən olan iqtisadiyyatın şaxələndirilməsi həlledici rol oynayır.

Bunun nəticəsidir ki, son bir il ərzində regionlarda 400 kilometrdən artıq ölkə və yerli əhəmiyyətli avtomobil yolu, 12 yeni körpü və yol ötürücüləri tikilib və ya təmir olunub. Xüsusilə kənd yollarının tikintisi davam etdirilib, əhalisi 351 min nəfər olan 245 yaşayış məntəqəsini birləşdirən 590 kilometrdən artıq kənd yolu çəkilib. Ötən il regionlarda 2 elektrik stansiyası istifadəyə verilib, 1289 transformator və 20 yarımstansiya quraşdırılıb, bəziləri təmir olunub, 8200 kilometrdən artıq elektrik və 12500 kilometrə yaxın qaz xətləri çəkilib, 43 rayon üzrə 430 yaşayış məntəqəsi təbii qazla təmin edilib, qazlaşdırma səviyyəsi 90 faizə, o cümlədən regionlar üzrə 80%-ə çatıb. Regionların su təchizatının yaxşılaşdırılması işləri davam etdirilib, əhalisi 175 min nəfər olan 4 şəhərdə su təchizatı layihəsi başa çatıb, bölgələrimizdə 750 kilometr su, 391 kilometr kanalizasiya xətti çəkilib, 125 minə yaxın əhalisi olan 58 yaşayış məntəqəsində modul tipli təmizləyici qurğular quraşdırılıb, əhalisi 630 min nəfərə yaxın olan 34 şəhər və rayonun 241 yaşayış məntəqəsində 300 subartezian quyusu qazılıb.

Heç şübhəsiz, qeyri-neft sektorunun inkişafında neft gəlirləri hesabına iqtisadiyyatın şaxələndirilməsi istiqamətində reallaşdırılan tədbirlərin mühüm rolu olmuşdur. Bu istiqamətdə görülən işlər regionların simasında göz qabağındadır.

Regionların hərtərəfli inkişaf etdirilməsi üçün ölkə Prezidentinin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" təsdiq edilmişdi. Regionların inkişafına dair birinci Dövlət Proqramının uğurla həyata keçirilməsinin ardınca 2009-cu il aprelin 14-də ikinci konsepsiya - "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiqləndi. Həmin proqramda qarşıya qoyulan vəzifələr də uğurla yerinə yetirilib.

Məlum olduğu kimi Prezident İlham Əliyevin Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" uğurla icra olunmaqdadır. Proqramda qeyri-neft sektorunun və regionların inkişafının davamlılığının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, ümumilikdə bölgələrin hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü siyasətin davamı olaraq "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın həyata keçirilməsinin təmin edilməsi nəzərdə tutulub.

Vurğulamaq lazımdır ki, regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda bütün bunlar barədə ətraflı bəhs edildi. Ölkə Prezidenti İlham Əliyev konfransdakı nitqində xüsusi vurğuladı ki, 2004-cü ildə əgər birinci proqram qəbul edilməsəydi, bugünkü Azərbaycan reallıqları tam fərqli ola bilərdi. Regionların inkişafı, sahibkarlara verilən dəstək, qeyri-neft sektorunun inkişafı, idxaldan asılılığın azaldılması, ixrac potensialının yaradılması son illərin uğurlarıdır.

Prezident İlham Əliyevin iştirakı ilə yanvarın 26-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfrans bir daha göstərdi ki, hökumətin iqtisadi siyasətində regional inkişaf tədbirlərinin prioritetə çevrilməsi əsaslı yanaşma olaraq tərəqqi prosesində davamlılığı təmin etmək məqsədindən irəli gəlir. Həmin konfransda dərin məzmunlu nitq söyləyən dövlət başçısı qlobal böhran şəraitində ölkənin inkişaf prioritetlərini bir daha bəyan etmişdir: "Biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və milli valyutamızı süni şəkildə istədiyimiz səviyyədə saxlaya bilmərik. Ancaq görülmüş tədbirlər nəticəsində sosial müdafiə paketinin təqdim edilməsi, qiymətlərə nəzarət, eyni zamanda, çox dərin iqtisadi islahatların aparılması bizə imkan verəcək ki, bu vəziyyətdən də uğurla çıxa bilək. 2016-cı il çox ciddi iqtisadi islahatlar ili olmalıdır və olacaqdır".

Ölkənin sosial-iqtisadi inkişafında prioritet kimi müəyyən edilməsi və neft-qaz gəlirlərindən səmərəli istifadə etməklə regional tarazlığın təmin edilməsində regional inkişaf üzrə Dövlət Proqramları mühüm rol oynayıb. İcrası başa çatmış iki Dövlət Proqramı çərçivəsində Azərbaycanın iqtisadi qüdrəti daha da yüksəlib, ölkədə işgüzar fəallıq artıb, regionlarda sahibkarlıq fəaliyyəti daha da genişlənib, geniş və ölkənin bütün coğrafi hüdudlarını əhatə edən iri infrastruktur layihələri həyata keçirilib. Bölgələrdə ən müasir texnologiyaların tətbiq olunduğu və beynəlxalq tələblərə cavab verən rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən yeni müəssisə və obyektlər yaradılıb. 2004-cü ildən indiyədək uğurla icra olunan regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına səbəb olur, bununla da ölkənin strateji inkişaf hədəflərinə, müəyyən edilmiş məqsədlərə nail olunmasına əhəmiyyətli töhfəsini verir.

Sözügedən konfransda, həmçinin xatırladıldı ki, Azərbaycan dövləti hərtərəfli düşünülmüş, məqsədyönlü iqtisadi siyasət həyata keçirir. Məhz bunun nəticəsidir ki, son 12 il Azərbaycanın sürətli və hərtərəfli inkişafı, iqtisadiyyatın rəqabət qabiliyyətinin artması, ölkənin enerji, ərzaq, nəqliyyat və ekoloji təhlükəsizliyinin möhkəmləndirilməsi, beynəlxalq nüfuzunun yüksəlməsi, əhalinin rifahının davamlı olaraq yaxşılaşması dövrü kimi tariximizə daxil olub. Bu uğurların əsasında Prezident İlham Əliyevin müasir çağırışlara cavab verən, məqsədyönlü və praqmatik siyasəti durur.

Müasir şəraitdə ölkəmizdə qeyri-neft sektorunun və regionların inkişafına xüsusi diqqət yetirildiyi bir vaxtda kənd təsərrüfatının inkişafı əsas istiqamətlərdən biri olaraq qalır. Çünki istənilən ölkənin iqtisadi təhlükəsizliyi birbaşa kənd təsərrüfatının dayanıqlı inkişafından asılıdır. Kənd təsərrüfatı iqtisadi artımın başlıca hərəkətverici qüvvəsi hesab olunmaqla onun yüksəlməsi ümumilikdə iqtisadiyyatın artımı deməkdir.

Dövlət başçısı ərzaq təhlükəsizliyi ilə bağlı müvafiq hökumət qurumlarına daim xüsusi göstərişlər verir və qarşıda duran vəzifələri müəyyənləşdirir.

Regionların inkişafı ilə bağlı əldə edilən uğurların bir səbəbi də odur ki, cənab İlham Əliyev bölgələrdə reallaşdırılan bütün layihələrin icrasını daim diqqət mərkəzində saxlayır, verdiyi tapşırıqların yerinə yetirilməsinə nəzarət edir, zəruri tədbirlər həyata keçirir.

Prezident İlham Əliyevin rayonlara sistemli və davamlı xarakter alan səfərləri regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsində müstəsna əhəmiyyət kəsb edir. Eyni zamanda, hər bir rayonun inkişafı ilə bağlı qarşıda duran spesifik vəzifələrin müəyyən edilməsini və həyata keçirilməsini təmin edir. Azərbaycanın dövlət başçısı regionlardakı kənd və qəsəbələrin, ölkənin hər bir yaşayış məntəqəsinin sosial infrastrukturunun yaxşılaşdırılması üçün tələb olunan maliyyə vəsaitlərinin ayrılmasını təmin edir. Bu da insanların rahatlığına, firavan yaşamasına səbəb olur.

✍ **Ceyhun Piriyev, *"İki sahil"***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Novruz bayramı münasibətilə keçirdiyi müsabiqəyə təqdim edilir.**